# “Əli Nəzmi” ədəbi birliyi - 40

**İlqar MÜZƏFFƏROĞLU,**

**“ Əli Nəzmi” ədəbi birliyinin mətbuat rəhbəri, Azərbaycan Jurnalistlər Birliyinin üzvü.**

Goranboy rayonunda dünyaya göz açan tanınmış şəxsiyyətlərdən Əsgərağa Gorani, Mikayıl Rəfili, Əli Nəzmi, İsmayıl Qarayev, ömrünün ilk gənclik çağlarından bu torpağa bağlı olan Hüseyn Cavan kimi sənətkarlar söz dünyamızda silinməz izlər buraxmışlar. Onların adları bu gün də ehtiramla anılır, yüksək sevgi hissləri ilə qarşılanır...

Adlarını çəkdiyimiz bu şəxsiyyətlərin xələfləri arasında şeirə, sənətə maraq göstərənlər də az deyil. Onlar rayonda qırx ildən bəri mədəniyyət mərkəzində fəaliyyət göstərən “Əli Nəzmi” Əbəbi Birliyi ətrafına toplaşmışlar. Birliyə onun ilk yaradıcısı olan şair Ələsgər Əlioğlu rəhbərlik edir. Onun imzası ölkəmizdə yaxşı tanınır. Şeirləri rus, belorus, özbək, alban və s. dillərə tərcümə olunmuş, iyirmidən artıq kitabı çapdan çıxmışdır.

Bu illər ərzində bir çox tanınmış söz adamları ədəbi birliyin fəaliyyəti ilə bağlı öz ürək sözlərini bildirmişlər. Böyük şairimiz Hüseyn Arifin hələ vaxtilə rayonun yaradıcı gəncləri haqqında yazmış olduğu xeyir-dua kimi qəbul olunan “Yaradıcılıq uğurları arzulayıram” adlı məqaləsi bu gün də ehtiramla anılır.







**Birliyin ilk məşğələlərindən birində**

Rayonda istedadlı şairlərdən Mirzə Əsgərov, Qafqaz Xıdıroğlu, Talıb Talıblı, İsgəndər Fərhadoğlu, Yusif Namazoğlu, Turab Kamaloğlu, Həsən Goranboylu, Ələddin Bilaloğlu, Həsən Göyçəli, Lütvi Halayoğlu, Anar Boluslu və başqalarının imzaları oxucular arasında yaxşı tanınır. Birliyin məsul katibi şair İmam Cəmillidir. Məşğələlərin ardıcıl surətdə keçirilməsində onun da xidmətləri az deyildir.

Birlik yarandığı bir gündən Respublika ictimaiyyətinin diqqətini cəlb etmiş, müxtəlif mətbuat orqanlarında fəaliyyəti ilə bağlı yazılar verilmişdir. Ayrı-ayrı vaxtlarda “Kommunist”, “Azərbaycan gəncləri”, “Azərbaycan müəllimi” “Sovet kəndi” , “Mədəni-maarif işi” və s. qəzet-jurnal səhifələrində ədəbi birliyin qaynar həyatını əks etdirən bir sıra yazılar dərc olunmuşdur.

Birlik üzvlərinin bəyənilib-seçilən əsərləri vaxtaşırı “Əli Nəzmi ədəbi birliyi” bülletenində və yerli “Mübariz” qəzetində dərc olunur.

“Goranboyun söz dünyası” adlı almanaxın üç nəşri çapdan çıxmışdır. Bu kitaba təkcə birlik üzvlərinin deyil, eyni zamanda sələflərimizdən Əli Nəzmi, Mikayıl Rəfili, İsmayıl Qarayev, Şair Səfər, Bisavad Teymur, Cinli Əli, İslam Təbib, Memar Cuma və Əli Eloğlunun yaradıcılıqlarından nümunələr də daxil edilmişdir.

Ədəbi Birlik vaxtaşırı səyyar məşğələlər də keçirir. Naftalan şəhərində və Dəliməmmədli şəhərində (qəsəbəsində) keçirilən məşğələlər yeni-yeni istedadların üzə çıxarılmasında öz təsirini göstərmişdir.

“Əli Nəzmi” ədəbi birliyinin üzvləri vaxtaşırı məktəblərdə və istehsalat müəssisələrində bir sıra görüşlər keçirmişlər ki, bunların hər biri yaddaşlarda dərin izlər buraxmışdır. Bu gün də bu ənənə davam etməkdədir...

“Əli Nəzmi” ədəbi birliyi hələ sovetlər dönəmində SSRİ Yazıçılar İttifaqının fəxri diplomuna layiq görülmüşdür. Birlikdə ayrı-ayrı mövzular üzrə şeir müsabiqəsi keçirilməsi bir növ ənənə halını almışdır. “Mənim Azərbaycanım” və “Qarabağ bizimdir!” mövzuları üzrə keçirilən müsabiqələr çox maraqla qarşılanmışdır.

Birlik üzvlərinin əksəriyyətinin kitabları çap olunmuşdur. Yeni çap olunan hər bir kitabın geniş təqdimatı keçirilir.

İndi birlikdə yubiley tədbirinə ciddi hazırlıq işləri aparılır. Bu münasibətlə rayonun hər bir yazarını təbrik edir, onlara söz-sənət yollarında uğurlar arzulayıram.



**Qəzet üçün hazırlanan bədii yazılar nəzərdən keçirilərkən**

Uğursuz anlarda qalsam da naçar,

Gecə keçəndə, sübh çağı,

Heç vaxt yıxılmaz Türkiyə.

Düzləri naxışlı, dağları gözəl,